# Nizami Gəncəvinin uşaq dünyası

## TÜRKÜSTAN GÖZƏLİNİN HEKAYƏTİ

Şeyda adlı incə zövqlü bir memar Bəhram şahın arzusuyla iki il gecə-gündüz işləyərək yeddi rəngə çalan yeddi günbəzli nurlu bir saray tikdi.

Həftənin hər gününü bir ölkə gözəlinin şirin hekayətini dinləməklə keçirən Bəhram şah yekşənbə günü sarı günbəzə Yəğmənaz adlı Rum1 gözəlinin görüşünə gəldi. Rum gözəli şahı salamlayıb öz hekayətinə başladı:

- Deyirlər İraqda cah-cəlallı, qüdrətli bir şah varmış. Günlərin bir günü o, münəccimlərdən öyrənir ki, haçansa qadınlardan onun başına bəla gələcək. Bəxtinin uğursuzluğundan şikayətlənən şah elə o gündən qadınlardan uzaq gəzib təktənha yaşamağa başladı.

Sonralar tənhalıqdan, bu üzücü günlərdən bezikən şah kəniz alıb-satmaqla məşğul oldu.

Günlərin bir günü tacir şahın hüzuruna bir dəstə kəniz gətirdi. Xoş təbəssümlü, mələksimalı, ay camallı bir kənizdən şahın çox xoşu gəldi. Öyrəndi ki, o kəniz ağlı-kamalıyla hamını heyran qoyub. Lakin tacir bunu da əlavə etdi ki, ay camallı, xoş təbəssümlü bu pərinin kişilərdən zəhləsi gedir. Kim bu kənizi alırsa, xasiyyətindən narazı olub geri qaytarır.

- Şah, sizin qadınlardan xoşunuz gəlmir, onunsa kişilərdən. Belə olduqda ulduzunuz heç cürə barışmaz. Qorxuram onu alıb sonra yenə peşman olub geri qaytarasınız, - deyə tacir şahı fikrindən daşındırmağa çalışdı.

Lakin şah inadkarlığından dönmədi. Kənizin məhəbbətini qazanmaq üçün Süleyman şahla sevgilisi Bilqeyisin dastanından söz açdı:

- Süleymanla Bilqeyisin şikəst bir oğlu varmış. Gecə-gündüz dövləti idarə edən padşah doğruçuluğu, mərdliyi ilə hamının hörmətini qazanıbmış. Yetim-yesirə əl tuturmuş. Padşahın xeyirxahlığı əvəzsiz qalmır. Gün keçir, ay dolanır, kasıb-kusubun, kimsəsizlərin, köməksizlərin alqışı oğlunu sağaldır, gözünə işıq, dizinə taqət gətirir.

Şahın söz-söhbəti kənizin çox xoşuna gəldi və söz verdi ki, həqiqəti olduğu kimi danışsın. Demə, onun ailəsində uğursuz bir adət varmış. Ərə gedən bacılar bir qədərdən sonra dünyadan köçürmüş.

Şah kənizin sözlərinə qəlbən inansa da, saf məhəbbətlə sevdiyi bu gözələ qovuşmaq, xoşbəxt olmaq istəyirdi. Aylar ötdü, şahın saf, təmiz, ülvi məhəbbəti kənizin ömrünə nəğmə dolu günlər gətirdi. Onlar qovuşub xoşbəxt ömür sürdülər.

Bəhram şah sarı rəng haqqında şirin xəyallara daldı.

Bir ömrün nəğməsini ötüb torpağın çiyninə düşən yarpaqların, yeri-yurdu nurlandıran günəşin ziyası sarı rəngdədir. Çörəyin üzünə çəkilən sarı zəfəranın ətri xoş duyğular oyadır. Şamın şöləsi zülmətin bağrından nur zolağı salır, məclislərə, şənliklərə sevinc gətirir.

## MƏĞRİB GÖZƏLİNİN HEKAYƏTİ

Göylər firuzə rənginə boyananda, dünya firuzə nuruna qərq olanda Bəhram şah saray əyanlarını başından dağıtdı. Bilirdi ki, Məğrib gözəli Azəryun intizarla indi oturub onu gözləyir. Şah özünü göy günbəzə yetirdi. Göy paltar içində ay kimi şölələnən, gözləri ulduz təki nur saçan Məğrib gözəli şahın hüzurunda xanımlara layiq bir əda ilə baş əyib qulluğa hazır dayandı. Şahın buyruğu ilə şirin dilli, şirin sözlü Azəryun xanım hekayətinə belə başladı:

- Keçmiş zamanda Ərəbistanın Misir ölkəsində Mahan adlı gözəl, yaraşıqlı cavan bir tacir varmış. Mahan yaxın dostları ilə çəmənlikdə gəzib-dolaşmağı, kef çəkməyi sevərmiş.

Günlərin bir günündə adlı-sanlı bir nəfər Mahanı bağına qonaq aparır. Onlar yeyib-içir, əllərində piyalə, dodaqlarında nəğmə şənlənirdilər. Bağın səfası, ayın




işığı, axar-baxarların gözəlliyi, xurma ağacları onların könlünü oxşayır. Elə bu zaman Mahanın tacir yoldaşı - sövdəgər şəriki onun yanına gəlib xəbər verir ki, yükü dağdan ağır karvan var. Həmin karvanın mallarını alsaq, böyük qazanclar əldə edərik. Sövdəgər Mahanın kefli olmasından istifadə edərək onu aldadıb aparır. Qaranlıq gecədə Mahanın sövdəgər şəriki gözdən itir.

Mahan səhrada yatıb qalır. Günorta yuxudan ayılanda elə bilir ki, dünən kef çəkdiyi bağda yatıb. Gözlərinə inanmır. Görür ki, nə gül var, nə şənlik var, nə axar-baxarlı var, nə də xurma ağacları. İlanlar mələşən bir biyabandır. Hər ilan gözünə bir əjdaha kimi görünür. O, kimsəsiz səhrada öz kölgəsindən də qorxur.

Durub yola düzəlir. Ayaqlarında güc yox, yolunda bələdçi. Gecə düşür. Gecənin qaranlığı hər yeri bürüyür. Mahan bir kahanın ağzında yıxılır. Hər ot gözlərində bir ilana dönür. Ayaq səsləri eşidir. Görür ki, bir kişi ilə bir arvad dallarında şələ yavaş-yavaş, ağır-ağır addımlarla addımlayırlar. Kişi yaxınlaşıb ondan soruşur:

- Kimsən, nəçisən? Niyə yıxılmısan? Ay yazıq, söylə görüm, necə olub ki, divlərin məskəninə gəlib çıxmısan? Burada şirlər insanı parçalayır.

Mahan yazıq-yazıq deyir:

- Nabələdəm, qəribəm. Adım Mahandır. Dünən bağda qonaqlıqda şənlənirdim. Sövdəgər yoldaşım yanıma gəlib, məni kefli-kefli buraya gətirib, özü isə yoxa çıxıbdır. Ya səhv eləyib, ya da xəyanət. Ey nəcib insan! Yaxşılıq eləyib, mənə bu qorxulu səhradan çıxış yolu göstər!

Kişi Mahana üz tutub deyir:

- Ey gözəl oğlan! Şükür elə ki, ölümdən qurtarıbsan. Gözlərinə sövdəgər görünən insan deyilmiş, div imiş. Ona çöllərin azmanı deyirlər. Çoxlarının başına bu oyunu açıbdır. Gəl bizimlə gedək. Bu gecə səni öz yanımızda saxlayarıq. Səhər açılanda yol göstərərəm, öz yurduna qayıdarsan.



Beli şələli kişi ilə qadın Mahanın qoluna girib onu aparırlar. Səhər günəş dan yerindən boylananda, xoruzlar banlaşanda kişi də, qadın da bir göz qırpımında yoxa çıxır. Pələnglər nərildəyir. Aslanlar ov dalınca cumur. İlanların fışıltısı eşidilir. Mahan əlacsız qalıb acından ot-ələf yeməyə məcbur olur. Hər yana qaranlıq çökəndə yorulub əldən düşən Mahan bir mağarada daldalanır. Yuxu onu aparır. Səs eşidib səksəkəli oyanır. Görür ki, bir atlı yedəyində də başqa bir at ona yaxınlaşır. Atlı Mahanın üstünə qışqırır:

- Ey hiyləgər insan! Burada nə gəzirsən? Düzünü deməsən, səni öldürüb qanına qəltan edəcəyəm.

Qorxudan Mahanın rəngi saralır, başına gələnləri atlıya danışır. Atlı mat qalıb, barmağını dişləyir.

- Nə xoşbəxtsən ki, ölümdən yaxa qurtara bilibsən. Gözlərinə kişi və qadın görünənlər Kila ilə Nila adında iki cindir.

Onlar atları çaparaq çal-çağırdan qulaq tutulan bir yerə çatırlar. Sən demə, bura cinlər məskəni imiş. Cinlər atılıb-düşür, hay-küydən qulaq tutulur. Hər tərəfdə məşəllər alovlanır. Birdən Mahanın altındakı at qol-qanad açıb uçur. Mahan baxıb görür ki, at bilib belinə mindiyi dördayaqlı, yeddibaşlı, ikiqanadlı əjdahadır. Ayağını yerə döyür, ağzından od püskürür. Belindəkini oyuncağa döndərir. Mahan qorxusundan ona möhkəm sarılır. Səhər tezdən xoruzlar banlayanda əjdaha onu yerə salıb yoxa çıxır. Mahan özündən gedir. Sonra ayılıb o yerdən uzaqlaşır. Axar sulu bir yerə çatır, şirin sudan içir, üzünü yuyur. Yatıb dincəlmək üçün bir sığınacaq axtarır. Geniş, dərin və qaranlıq bir mağaraya rast gəlir. Mağaraya girib əlini başının altına qoyub yatmaq istəyəndə balaca bir deşikdən işıq düşdüyünü görüb sevinir. İşıq gələn deşiyi dırnaqları ilə qazıb genəldir, başını çıxarıb ətrafda səfalı bir bağ görür. Mahan sevincək özünü həmin bağa salır. Bağ nə bağ. Meyvəsinin çoxluğundan ağacların budaqları yerə dəyir.

Almalar şərab camına, püstələr gülən dodağa oxşayır. Heyvaların ətri bağı bürüyüb. Əncirin şirəsi axır. Armud, badam, innab adama "gəl-gəl" deyir. Mahan əlini uzadıb istədiyi meyvəni dərib yeyir, dünənki cəhənnəm əzabını yadından çıxarır. Mahan yenicə özünə gəlirdi ki, qəflətən bir səs eşidir:

- Ay haray, oğrunu tutun, qaçmasın!

Bu səs qoca bağbanın səsiydi. Bağban ona yaxınlaşır, görür ki, oğru deyil, nəcib bir insandır. Onun başına gələn müsibətdən xəbər tutur.

Qoca bağban Mahanın ağlına, nəcibliyinə heyran qalır. Ona bildirir ki, sonsuzdur, övladı yoxdur. O, Mahanı oğulluğa götürür. Onu möhtəşəm bir saraya aparır. Sarayın eyvanına uca bir ağac kölgə salır. Qoca, Mahanla şərt kəsir ki, ağacların şahbudağında taxt qurulubdur, ağaca çıxsın. Yemək də, içmək də, yatacaq da həmin taxtın üstündə hazırdır. O gələnə qədər ağacdan enməsin.

Mahan qoca bağbanın dediyinə əməl edib ağaca dırmaşır. Ağacdakı taxtın üstündə əyləşir. Orada ətrafı seyrə dalır. Nə görsə yaxşıdır? On yeddi incəbel gözəl... Hər birinin əlində şölə saçan şam. Üzləri çıraq kimi yanır. Süfrələr salınıb. Dünyanın hər nemətini burda görərsən. Zəfəranla zirəli aş, narplov, toyuq, balıq, kökə, lavaş, fəsəli, halva və bunlardan savayı süfrələr yüz cürə nemətlə bəzənibdir.

Başındakı qızıl cəvahiratlı tacı par-par yanan gözəllər gözəli məclisin başında oturub. Hurilər, mələklər onu dövrəyə alıb.

Gözəllər gözəli pəri qızlardan birinə buyurur ki, ağacın başındakı qonağı məclisə çağır. Gəlməsə, de ki, onsuz heç bir nemətə əl vurulmayacaqdır. Qız bu sifarişi qonağa yetirir. Bülbül təki dil açıb qonağı budaqdan gül kimi qoparır.

Mahan gözəllər məclisinə gəlir. Gözəllər gözəlinin buyruğu ilə qızlar qonağı yedirib-içirdilər. Mahan keflənir. Özünü saxlaya bilməyib gözəllər gözəlinin dodaqlarından öpməyə cəsarət edir. Mahan bu dəmdə nə görsə yaxşıdır? Görür ki, vurulduğu və öpdüyü gözəl ifritəyə çevrilib. O, qaban dişli bir vəhşidir. Üzü qırış-qırışdır. Ağzı boyaqçı küpünə oxşayır.

Qozbeldir, sir-sifəti xərçəngi andırır. Açılmış dodaqları elə bil ki, timsah dodaqlarıdır. Mahan huşunu itirir.

Yenə şəfəq sökülәndə, xoruzlar banlayanda pərilər, divlər yox olur. Mahan ayılıb görür ki, səfalı bağda gül-çiçəkdən, gözəllərin məclisindən əsər-əlamət də qalmayıb. Dünənki büsatın yerindən leş qoxusu gəlir. Tez durub haman yerdən uzaqlaşır. Rastına çıxan bir bulağın başında sərin su içib özünə gəlir. Bulağın üstündə yaşıl geyimli bir insan görünür. O, Mahana üz tutaraq deyir:

- Sənin xilaskarın Xızıram. Gözlərini yumub-açınca özünü doğma vətəni Misirdə dostlarının yanında görür. Görür ki, dostları onu ölmüş bilib matəm saxlayırlar. Hamısı adətləri üzrə göy rəngli yas paltarı geyinibdir.

Dostlarının sədaqətini görüb Mahan da həmin gündən göy rəngi xoşlayır. Göy rəngli paltar geyinir.

Məğrib gözəli hekayətini danışıb qurtaranda Bəhram şahın gözlərində göy rənglər çələngə dönür. Göylər göy libas geydiyi üçün günəş sinəsində medalyon kimi yanır. Hər gün göy libaslı hindli atəşpərəst kimi günəşə sitayiş edir.

**Uşaqlar üçün hazırlayan:**
**Abbasəli Sarıoğlu**